# MÜNDƏRİCAT

## QƏDİM ŞƏRQ

QƏDİM MİSİR................................................................... 3
QƏDİM ŞUMER................................................................... 12
BABİL ŞAHLIĞI ................................................................... 14
AŞŞUR DÖVLƏTİ................................................................... 16
ƏHƏMƏNİLƏR DÖVLƏTİ................................................................... 18
FİNİKİYA................................................................... 21
İSKİTLƏR................................................................... 23
QƏDİM TÜRKLƏR................................................................... 25

BÖYÜK HUN İMPERATORLUĞU........................................ 28
QƏDİM ÇİN.................................................................... 30
QƏDİM HİNDİSTAN ........................................................ 34

## ANTİK TARİX

QƏDİM YUNANISTAN........................................................ 37
QƏDİM ROMA.................................................................. 52

## QƏDİM MİSİR

- ❖ Misir Afrikanın şimal-şərqində, "Böyük çay" adlandırılan Nil vadisində və deltasında yerləşirdi.
- ❖ Qədim Şərqdə zəngin ölkə kimi tanınan Misirdə qızıl Nubiya mədənlərindən çıxarılırdı. Sina yarımadasından isə mis gətirilirdi.
- ❖ Misir əhalisinin əsas məşğuliyyəti əkinçilik idi.
- ❖ Qədim misirlilər Nil vadisi torpaqlarının rənginə görə öz ölkələrini "Qara torpaq" adlandırırdılar.
- ❖ Nil vadisi boyunca həm əkinləri daşqınlardan qorumaq, həm də əkinə lazım olan suyu saxlamaq üçün damba adlanan bəndlər çəkirdilər.
- ❖ Hündürdə yerləşən tarlalara su qaldırmaq üçün istifadə edilən qurğu isə şaduf adlanırdı.

❖Artıq Neolit dövründə Nil vadisində maldar tayfalar məskunlaşmışdı. Eneolit dövründə əkinçilik daha da inkişaf etmişdi. Süni süvarma sistemlərinin yaradılması əkinçiliyin genişlənməsinə və məhsuldarlığın artmasına imkan verdi.

❖Birgə əmək fəaliyyəti zamanı insanların fəaliyyət birliyini əks etdiren təşkilatlar - "nom" (yunanca "vilayəl) yaranırdı. Öz dini, ibadət etdiyi tanrıları, ərazisi, suvarma sistemi olan hər bir nom tədricən ilk xırda dövlətlərə çevrildilər.

❖ İlk zamanlar Misirdə 40 nom var idi.

❖ Nomlarda əhali tədricən üç təbəqəyə bölünmüşdü:

1. quldarlar (əyanlar, kahinlər);
2. azad adamlar: əkinçilər, maldarlar, sənətkarlar;
3. qullar.

❖ B.e.ə. IV minilliyin ikinci yarısında Yuxarı Misirdə və Aşağı Misirdə nomların birləşdirilməsi nəticəsində müstəqil padşahlıqlar yarandı.
❖ B.e.ə. IV minilliyin sonunda Yuxarı Misir Aşağı Misirə qalib gəldi və vahid Misir dövləti yarandı.
❖ Vahid Misirin ilk paytaxtı Memfis şəhəri idi.
❖ Hökmdarlar firon adlanırdı.
✓ Misir hökmdarı qeyri-məhdud hakimiyyətə malik idi.
✓ Hərbi idarə bütövlükdə fironun əlində idi.
✓ Onun ən yaxın köməkçisi ali məmur hesab olunan çati idi.
✓ Firon çati vəzifəsinə öz övladlarını təyin edirdi.
✓ Çati təsərrüfat həyatını və məhkəmə orqanlarını idarə edirdi.
✓ Firon dəftərxanasına rəhbərlik və dövlət xəzinəsi də ona tapşırılırdı.
❖ Misir kahinləri fironu Yer üzünün tanrısı, "Günəş oğlu" adlandırırdılar.

- ❖ Əlverişli ticarət yolları, gəmiçiliyin inkişafı ticarətin genişlənməsinə imkan yaradırdı.
- ❖ Bu işdə Nil çayı müstəsna rol oynayırdı.
- ❖ Misirə Babil vasitəsilə sidr ağacı gətirilirdi.
- ❖ B.e.ə. II minillikdə Misirdə quldarlıq yüksək inkişaf səviyyəsinə çatdı.
- ❖ Qulların əksəriyyəti Ön Asiyadan gətirilirdi.
- ❖ B.e.ə. II minillikdə Misirin yeni paytaxtı Fiv (Fiva) şəhəri oldu.
- ❖ Qədim Misirdə qulların sayının artması fironun uğurlu müharibələri ilə bağlı idi.
- ✓ Qul əməyindən dövlətə və məbədlərə məxsus təsərrüfatlarda və əyanların malikanələrində istifadə olunurdu.
- ✓ Qulları "canlı ölülər",
- ✓ icma üzvü olan xırda əkinçiləri və maldarları isə "kiçiklər" adlandırırdılar.

- Firon **I Tutmos** və onun varisləri işğalları genişləndirdilər.
- I Tutmosun Şərqi Aralıq dənizi ölkələrinə yürüşü uğurlu oldu və Fərat çayına kimi gəlib çatdı.
- I Tutmosun hakimiyyəti dövründə məbəd tikintisi genişləndirildi.
- **III Tutmosun** hakimiyyəti dövründə (b.e.ə. 1504-1450) Misirin Ön Asiyada hakimiyyətini bərpa etmək üçün Suriya və Fələstinə yürüşlər təşkil edildi.
- III Tutmos Suriya və Mitani hərbi birləşməsini məğlub edib, Suriya, Fələstin və Finikiyanı işğal etdi.
- Nubiyada Misirin hakimiyyəti qurulmuşdu.
- III Tutmosun dövründə Misirin sərhədi cənubda dördüncü Nil keçidindən başlayaraq şimalda Suriyaya qədər uzanırdı.
- Ölkəyə Efiopiya və Finikiyadan tikinti ağacı gətirilirdi.

❖ **II Ramzesin** hakimiyyəti dövründə (b.e.ə. 1301-1235) də işğalçı müharibələr davam etdi. II Ramzes Suriyaya iki hərbi yürüş təşkil etdi.

✓ Birinci yürüş (b.e.ə. 1296) uğursuz oldu. O, hetlərlə döyüşdə məğlub olaraq Suriya və Fələstində möhkəmlənə bilmədi.

✓ Onun ikinci yürüşü isə uğurlu oldu. Hetlər məğlub edildi.

❖ Bağlanan sülhə görə

✓ Fələstin, Suriya və Finikiya yenidən Misirin hakimiyyəti altına düşdü.

✓ Yalnız Şimali Suriya hetlərin əlində qaldı.

❖ II Ramzes ölkədə geniş quruculuq işləri həyata keçirdi. O, böyük sərdabələr, imarətlər, məbədlər tikdirdi. Nubiyadakı məbədlərdən birinin qarşısında onun 24 metrlik heykəli qoyulmuşdu.

❖ II Ramzesin vəfatından sonra Misirin Ön Asiyadakı mövqeyi tədricən zəiflədi.

❖ Qədim Misirdə fironların qeyri-adi qüdrətə malik olmasını göstərmək üçün piramidalar (ehramlar) tikilirdi.

❖ İlk ehram firon Cosera məxsus idi.

❖ Onlardan ən hündürü dünyanın yeddi möcüzəsindən biri hesab edilən Xeops ehramıdır.

❖ Ehramın qarşısında, hündürlüyü 20 metr olan nəhəng Sfinks (insan başlı, nəhəng aslan bədənli əfsanəvi məxluq) heykəli qoyulmuşdu.

❖ Onu "Dəhşətlər atası" adlandırırdılar.

❖ Artıq I Tutmosdan başlayaraq fironları piramidalarda deyil, yeraltı gizli qayaaltı sərdabələrdə dəfn edirdilər.

❖ Qədim Misirdə varlı adamların meyidini dəfn etməzdən əvvəl mumiyalayırdılar.

- B.e.ə. IV minilliyin sonunda Qədim Misir yazısı meydana gəldi.
- İlk yazı növü şəkli yazı idi.
- Onun sadələşdirilməsi nəticəsində heroqliflər ("müqəddəs işarələr") yarandı.
- Heroqliflərin sayı 750-yə çatırdı.

Misir yazısında tədricən 21 samitdən ibarət əlifba işarələri də yarandı.

- Əsas yazı materialı papirus idi.
- Qədim Misir ədəbiyyatının ən gözəl nümunəsi "Osiris haqqında əfsanə"dir.

❖ Misirlilər planeti ulduzdan fərqləndirir, ulduzların xəritəsini çəkə bilirdilər.

❖ Onlar su və günəş saatını da ixtira etmişdilər.

❖ Qədim Misirdə hesab, həndəsə, təbabət, astronomiya inkişaf etmişdi.

❖ Onlar Nilin daşması əsasında təqvim tərtib edərək (365 gün) ili 3 dövrə bölürdülər (başlanğıc, oyanış, quraqlıq).

✓ İlin başlanğıcı iyul ayına uyğun gəlirdi.

✓ İl hər biri 30 gün olan 12 aydan ibarət idi.

✓ İlin sonuna 5 gün əlavə edirdilər.

❖ Qədim Misirdə baş tanrı Amon sayılırdı.

✓ Anubis ölüm tanrısı,

✓ dünyanın yaradıcısı hesab olunan Ra (Xekri) Günəş tanrısı,

✓ Osiris ölən və dirilən təbiət tanrısı,

✓ Osirisin oğlu Qor səma və işıq,

✓ Tot müdriklik və hesab tanrısı idi.

## QƏDİM ŞUMER

Qədim Şumer dövlətləri Dəclə və Fərat çayları arasında, qədim yunanların Mesopotamiya (yunan dilində "İkiçayarası") adlandırdıqları indiki İraq ərazisində yaranmışdır.

❖ Türkdilli xalq olan şumerlər b.e.ə. VII-VI minilliklərdə Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək burada məskunlaşmışdılar.

❖ Mesopotamiyanın cənubu Şumer ölkəsi adlanırdı.

❖ Burada b.e.ə. III minilliyin birinci yarısında Ur, Uruk, Laqaş, Nippur və b. Şəhər dövlətlər meydana gəlmişdi.

Şumer dövlətlərinə "en" adlanan ali kahin başçılıq edirdi.

O, dövlət və məbəd işlərinə, ölkənin təsərrüfat həyatına, hərbi işlərə rəhbərlik edirdi.

❖ Tədricən Şumer dövlətlərinə "ensi" adlandırılan hökmdar başçılıq etməyə başladı.

❖ Şumerlərdə əvvəl şəkli yazı mövcud idi. B.e.ə. III minilliyin əvvəllərində burada mixi yazı növü meydana gəldi. Sonralar şumerlərdən şimalda yaşayan akkadllar, babilillər və aşşurlar da mixi yazıdan istifadə etməyə başladılar.

❖ B.e.ə. III minillikdə Şumer şəhər dövlətlərində məbədlər tikilmişdi.

❖ Mesopotamiya memarlığına xas olan zikkurat 3, 5 və 7 mərtəbəli pilləli məbədlər idi. Onun yuxarı hissəsində ibadətgah yerləşirdi. Zikkuratlardan rəsədxana kimi də istifadə olunurdu.

❖ Şumer şəhər-dövlətlərində b.e.ə. III minillikdə heykəltəraşlıq, zərgərilk, daşişləmə sənətləri inkişaf etmişdi.

❖ Ur şəhərindəki Ay tanrısının məbədi (b.e.ə. XXI əsr) Şumer memarlığının ən gözəl nümunələrindəndir.

❖ Qədim Şumerdə "Ümumdünya daşqını", "Gilqameş haqqında dastan" kimi əfsanələr yaranmışdı.

## BABİL ŞAHLIĞI

- B.e.ə. II minilliyin əvvəllərində Mesopotamiyada yaranan şəhər-dövlətlərdən biri də Dəclə və Fərat çaylarının , bir-birinə yaxınlaşdığı ərazidə yerləşən **Babil** idi.
- Akkadlar onu Bab-ili ("tanrının qapısı"), yunanlar isə Vavillon adiandırırdılar.
- Babil şəhəri ətrafında yaranan şəhər-dövlət az sonra qüdrətli Babilistan dövlətinə çevrildi.
- Qədim Babilistan dövlətinin əsası b.e.ə. XIX əsrdə qoyulmuşdur.
- Bu dövlətin ən qüdrətli hökmdarı Hammurapi (b.e.ə. 1792-1750) olmuşdur.
- Hammurapi Aşşur, İsin və Uruk şəhərlərini tutduqdan sonra öz müttəfiqi olan Mari hökmdarını da məğlub etdi.
- Hammurapi kanalların, yolların çəkilməsinə, yeni binaların tikilməsinə, abadlıq və əkinçilik işlərinə, ticarətin inkişafına böyük diqqət yetirirdi.

- ❖ O, bütün ölkə üçün 282 maddədən ibarət qanunlar külliyyatı tərtib etdirmişdi. Bu qanunlar qara bazalt daş sütun üzərində mixi yazı ilə həkk edilmişdi.
- ✓ Qanuna görə quldarlar, torpaq sahibləri, kahinlər, əkinçilər, sənət-karlar azad vətəndaşlar idi.
- ✓ Borcu və onun faizini vaxtında ödəyə bilməyən azad adam qula çevrilirdi.
- ✓ Üç il davam edən borc köləliyi nəzərdə tutulurdu.
- ✓ Qul övladları anadangəlmə kölə hesab edilirdi.
- ✓ Atası və ya anasından biri qul, digəri isə azad olan övlad azad hesab olunurdu.
- ❖ Müharibədə ələ keçirilmiş hərbi əsirlər qula çevrilirdi.
- ❖ Babil zəngin mədəniyyətə malik olmuşdur.
- ❖ Babil qülləsi, Babil darvazası, xüsusilə dünyanın yeddi möcüzəsindən biri olan "Semiramidanın asma bağları" qiymətli memarlıq abidələri kimi tanınmışlar.

## AŞŞUR (ASSURİYA) DÖVLƏTİ

Qədimdə Babildən şimalda yaranmış Aşşur (Assuriya) b.e.ə. VIII-VII əsrlərdə ön Asiyanın ən qüdrətli dövləti oldu. Onun paytaxtı Dəclə çayı sahilindəki Nineva şəhəri idi.

❖ Bu dövrdə Aşşur dövləti böyük hərbi gücə malik idi.

❖ Aşşur sənətkarları hələ b.e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərində filizdən dəmir almağı öyrəndilər.

❖ Tunc silahlar daha keyfiyyətli dəmir silahlarla əvəz olundu.

❖ Babil, Suriya, Fələstin aşşurlar tərəfindən işğal olundu, Urartu və Misir isə məğlub edildi.

❖ Onlar dəfələrlə Azərbaycan ərazisinə də hərbi yürüşlər etmiş, lakin Manna dövlətini tam tabe edə bilməmişdilər.

❖ Aşşurun paytaxtı Nineva "aslanlar yuvası" adlan-dırırdılar.

❖ Arasıkəsilməz müharibələr və düşmənlərin ona qarşı birləşməsi Aşşur dövlətini zəiflədirdi.

❖ Yenidən qüvvətlənmiş Babillə Midiya Aşşura qarşı ittifaq bağladı.

❖ B.e.ə. 612-ci ildə Nineva işğal edildi və b.e.ə. 605-ci ildə Aşşur dövləti süqut etdi.

❖ Onun torpaqları Midiya və Yeni Babil şahları arasında bölüşdürüldü.

❖ Aşşur zəngin mədəniyyətə malik idi.

❖ Dünyanın ən qədim kitabxanalarından biri on minlərlə kitabın saxlandığı Nineviya kitabxanasıdır.

❖ Burada salnamələr və dastanlar, astronomiyaya, riyaziyyata və təbabətə aid kitablar var idi.

## ƏHƏMƏNİLƏR DÖVLƏTİ
(e.ə. 550-330)

❖ İranın ən qədim sakinləri cənubda yaşayan elamlar idi.

❖ B.e.ə. II minilliyin axırlarında əvvəllər Şərqi Avropada yaşamış ari tayfaları Qafqaz və Mərkəzi Asiyadan keçərək indiki İran ərazisində məskən saldılar.

❖ Fars adı ilk dəfə b.e.ə. IX əsrdə Aşşur kitabələrində çəkilmişdir.

❖ B.e.ə. VIII əsrin ikinci yarısında farslar tayfa ittifaqı yaratdılar.

❖ Ona Əhəmənilər sülaləsi başçılıq edirdi.

❖ Sülalənin banisi Əhəmən olmuşdur.

❖ Onlar əvvəl Aşşurun, sonra Midiyanın tabeliyində idilər.

❖ B.e.ə. 550-ci ildə Midiya dövlətinin varlığına son qoyan II Kir Əhəmənilər dövlətini qurdu.

❖ O, b.e.ə. 547-ci ildə Kiçik Asiyada Lidiyanı, az sonra buradakı yunan məskənlərini,

❖ b.e.ə. 539-cu ildə isə Babili işğal etdi.

❖ B.e.ə. 530-cu ildə II Kir massagetlərin hökmdarı Tomiris tərəfindən məğlub edilərək öldürüldü.

❖ II Kirin oğlu II Kambiz b.e.ə. 525-ci ildə **Pelusiya** döyüşündə Misir ordusunu məğlub etmiş və rəmzi olaraq Misir fironu elan edilmişdi.

❖ Bu yürüşdən sonra Əhəmənilər dövlətinin ərazisi Misirdən Hindistana, İran körfəzindən Böyük Qafqaza qədər uzanırdı.

❖ B.e.ə. 522-ci ildə II Kambiz Misirdə olarkən midiya kahini (maq) Qaumata hakimiyyəti ələ keçirdi. Misirdən geri qayıdan II Kambiz Suriyada vəfat etdi.

❖ Əhalini üç il müddətinə vergi və hərbi mükəlləfiyyətdən azad edən Qaumata isə b.e.ə. 522-ci ildə I Dara tərəfindən devrildi və öldürüldü.

❖ I Dara üsyanları yatırtdı, islahatlar keçirdi, dövlətin ərazisini 20 satraplığa (canişinliyə) böldü və vahid pul sistemi yaratdı.

❖ Qızıl pullar darik adlanırdı. Satraplar ancaq gümüş pul kəsdirə bilərdilər.

❖ I Daranın dövründə Hindistanın şimal-şərqi, Egey dənizi hövzəsi, Qara dənizin cənub sahillərindəki yunan şəhərləri zəbt edildi.

❖ Əhəmənilər dövlətinin varlığına b.e.ə. 330-cu ildə Makedoniyalı İsgəndər tərəfindən son qoyuldu.

# FİNİKİYA

Qədim dövrlərdə finikiyalılar Aralıq dənizinin şərq sahillərində məskunlaşmışdılar.

❖ Bağçılıqla məşğul olan finikiyalılar üzüm, zeytun və xurma becərir, sidr ağacını isə ağacların şahı, müqəddəs hesab edirdilər. Bu ağac çox qiymətli tikinti materialı idi. Şəffaf şüşə Finikiyada icad olunmuşdur.

❖ Qədim yunanlar Finikiyanı "Foinike" adlandırırdılar. Bu söz tünd-qırmızı boyaq (purpur) mənasını verir.

❖ Çünki finikiyalılar dəniz ilbizi şirəsindən tünd-qırmızı boyaq hazırlayırdılar.

❖ Finikiyanın əsas şəhərləri Bibl, Sidon və Tir şəhərləri idi.

❖ Tir Finikiyanın mərkəzi şəhəri idi və sahilə yaxın adada yerləşirdi.

❖ B.e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərində finikiyalılar ən yaxşı dənizçi və gəmiqayıranlar idilər.

❖ Qütb ulduzuna görə səmti təyin edən finikiyalılar ilk dəfə açıq dənizə, hətta Atlantik okeanına çıxmağa cəsarət etmişlər.

❖ Finikiyalılar Misir və Babil mallarını Yunanıstanda satır, eyni zamanda dəniz quldurluğu ilə məşğul olurdular.

❖ Onlar İspaniyada, Şimali Afrikada, Kipr, Siciliya, Sardiniya adalarında daimi məskənlər-koloniyalar (koloniya - yad ölkələrdən gələnlərin yaşadığı yer deməkdir) saldılar.

❖ Tir şəhərindən gələnlər Şimali Afrikada Karfagen koloniyasının əsasını qoydular.

❖ Misirlilərin təcrübəsindən istifadə edən finikiyalılar b.e.ə. X əsrdə 22 samitdən ibarət ən qədim əlifbalardan birini yaratmışlar.

# İSKİTLƏR

❖ B.e.ə. VIII əsrin sonu - VII əsrin əvvəllərində Qara dənizin şimalında yaşayan kimmer, iskit (skif) və saklar Ön Asiyaya böyük köç etdilər.

❖ Onların bir hissəsi Urmiya gölündən şimalda və qərbdə məskən saldı.

❖ Başçıları İşpakay idi. B.e.ə. VII əsrdə burada Kimmer-İskit-Sak padşahlığı yarandı.

❖ Kimmer və iskitlər bir müddət Manna ilə müttəfiq olmuş və 28 il (b.e.ə. 653-625) Midiyada ağalıq etmişdilər.

❖ Lakin Midiya hökmdarı Kiaksar İskit ağalığına son qoydu və onları özündən asılı vəziyyətə saldı.

❖ Əhəməni hökmdarı I Dara İskit və Sak tayfalarına qarşı yürüş təşkil etdi və sakları darmadağın etdi.

❖ B.e.ə. 512-ci ildə Qara dəniz sahillərində yaşayan iskitlər I Daranın hücumunun qarşısını alıb, onu geri oturtdular.

❖ B.e.ə. IV əsrin ortalarında Don çayından Dunay çayına qədər olan ərazidə iskit (Sak) dövləti yarandı.

❖ B.e.ə. III-II əsrlərdə onun paytaxtı Neapol şəhəri idi. İskitlərin öz ərazilərini qərbə doğru genişləndirməyə çalışması onların Makedoniya hökmdarı II Filiplə üz-üzə gəlməsinə səbəb oldu. B.e.ə. 339-cu ildə baş verən döyüşdə iskitlər məğlub edildilər.

❖ B.e.ə. 331-ci ildə Makedoniyalı İsgəndərin sərkərdələrindən biri iskitlərə qarşı yürüş etsə də, uğur qazanmadı.

❖ Lakin b.e.ə. II əsrdə makedoniyalılar iskitləri məğlub etdilər. Sağ qalan iskitlər sarmatlara qoşuldular.

❖ İskitlər əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olurdular. Onlarda çoxtanrılıq mövcud idi.

❖ Oda, suya inam geniş yayılmışdı. Herodot iskitlərin Günəş tanrısına at qurban verdiklərini yazır.

❖ Daşdan yonulmuş insan fiqurları və zoomorf formalı (heyvan üslublu) fiqurlar və rəsmlər iskitlərin yaratdıqları gözəl incəsənət nümunələridir.

❖ B.e.ə. I minilliyin ortalarında iskitlər arasında quldarlıq münasibətləri meydana çıxmışdı.

# QƏDİM TÜRKLƏR

- ❖ Qədim türklərin ilk məskənlərindən biri Mərkəzi Asiya, Sayan - Altay dağlarının şimal-qərbindəki torpaqlar və Yenisey çayı sahilləri olmuş və adətən, Böyük Türküstan adlanmışdır. "Türk" sözünün güclü, törəyən, çoxalan kimi müxtəlif mənaları vardır.
- ❖ Mərkəzi Asiyadakı Baysuntau dağında yerləşən Teşik-Taş (Deşikdaş) mağarasından (Özbəkistan) neandertal tipli 8-9 yaşlı uşaq skeletinin tapılması bu ərazinin Daş dövrünə aid qədim insan məskəni olduğunu göstərir.
- ❖ Namazqanda, Sibirin cənubunda və Qazaxıstan çöllərində tunc dövrünə ald abidələr aşkar edilmişdir.
- ❖ İssık gölü ətrafında - Esikdə qızıl əşyalarla zəngin kurqan açılmışdır.
- ❖ Buradan b.e.ə. V əsrə aid 23 hərfdən ibarət qədim yazı tapılmışdır.

❖ Şərqi Altaydakı Pazırıq vadisində b.e.ə. V-IV əsrlərə aid kurqan tədqiq edilib öyrənilmişdir.

❖ B.e.ə. II minilliyin sonu - I minilliyin birinci yarısında türk tayfalarının köçü və yerdəyişmələri baş vermişdi.

❖ Türküstandan Şimali Qafqaza, Qara dəniz sahillərinə köç edən türkləri yunanlar iskit, Mərkəzi Asiya və Yaxın Şərqə axın edənləri farslar sak, aşşurlar işquz adlandırmışlar.

❖ Azərbaycan qədim türklərin ilk yurdlarından biri sayılır.

❖ B.e.ə. VI—IV əsrlərde Mərkəzi Asiyada Baktriya, Parflya, Margiana, Xarəzm, Soqdiana kimi vahə dövlətlərinin olması haqqında "Avesta"da və Çin yazılarında məlumat verilir.

❖ Amudəryanın aşağı axarında Xarəzm, indiki Özbəkistanın və Tacikistanın cənubunda Baktriya, mərkəzi hissəsində isə Soqdiana yerləşirdi.

❖ B.e.ə. VI-V əsrlərdə Mərkəzi Asiya Əhəmənilərin hücumuna məruz qaldı. Bu zaman Sirak adlı bir nəfər sak İran ordusunu "bələdçi" kimi aldadaraq səhrada məhv etmişdir.

❖ B.e.ə. IV əsrin 30-cu illərində Mərkəzi Asiya makedoniya-lıların hücumuna məruz qaldı. Onlar Səmərqəndi tutdular.

❖ Baktriyalılar və soqdianalılar Spitamenin başçılığı altında Makedoniyalı İsgəndərə qarşı üsyan qaldırdılar.

❖ Lakin Xarəzm hökmdarı və Baktriya əyanlarının xəyanəti nəticəsində üsyan yatırıldı.

❖ Qədim Türküstan ərazisində yaşayan əhali zəngin mədəni irs qoyub getmişdi.

❖ Üzərində şir başı təsvir olunmuş quiplu kuzələr və ritonlar (gildən hazırlanmış qab) dulusçuluq sənətinin inkişafını göstərir.

❖ Əhali Zərdüşt dininə inanır, Günəşi, Ayı, Odu müqəddəs sayırdı.

# BÖYÜK HUN İMPERATORLUĞU

- ❖ Hunlar ən qədim türk tayfalarından biridir.
- ❖ Onlar Orxon və Selenqa çayları arasındakı ərazidə yaşayırdılar.
- ❖ Hun tayfa ittifaqına "tanhu" ("yabqu-kağan-xaqan") basçılıq edirdi.
- ❖ Hun dövləti haqqında tarixdə ilk məlumat b.e.ə. III əsrdə hunların Çinə hücumu ilə bağlı verilmişdir.
- ❖ Böyük Hun imperatorluğu b.e.ə. 220-ci ildə Teoman Tanhu tərəfindən yaradılmışdı. Bu, Mərkəzi Asiyada yaranmış ilk türk dövlətidir.
- ❖ Dövlətin başçısı Teoman (b.e.ə. 220-209) Çinə hücum etdi.
- ❖ Çinlilər bu hücumun qarşısını almaq üçün b.e.ə. 214-cü ildə Böyük Çin səddini inşa etməyə başladılar.

❖ Mete xaqanın dövründə (b.e.ə. 209-174) dövlətin ərazisi Sibirdən Himalay dağlarına, Sakit okeandan Xəzər dənizi və Ural dağlarına qədər uzanırdı.

❖ Mete nizami süvari ordu yaratmışdı.

❖ B.e.ə. 58-ci ildə imperiya Şərq və Qərb hunlarına parçalandı. Qərb hunlarının başında duran Çiçi b.e.ə. 36-cı ildə Tanrı dağlarının şimalını, İssık gölünün ətrafını və Orta Asiyanı tutdu.

❖ Qərb hunları üzərinə hücum edən çinlilər Böyük İpək yolu üstündə yerləşən 50-dək şəhəri qarət edib dağıtdılar. Qərb hunları Urala çəkildilər.

❖ B.e.ə. 18-ci ildə müstəqillik qazanan Şərq hunları Cənub və Şimal hunlarına bölündülər. Cənub hunları Çinin əsarətində qalsa da, Şimal hunları müstəqil oldu.

❖ Hunların ən ulu səma tanrıları Günəş və Ay idi.

❖ Hunlara görə, pis ruhları yeraltı dünyanı idarə edən Yerlik tanrı himayə edirdi. Ruhlarla insanlar arasında əlaqə yaradan adam şaman adlanırdı.

# QƏDİM ÇİN

❖ "Çin" sözü Sin sülaləsinin adı ilə bağlıdır.

❖ Çinin ərazisindən Xuanxe və Yansızı çayları axır. Daşqınlara görə Xuanxe çayını "Çinin bəlası", "Min fəlakət çayı", "Gəzən çay" adlandırırdılar.

❖ Çin ərazisində ilk dövlət b.e.ə. XIV əsrdə yaranmış Şan dövləti idi.

❖ Burada b.e.ə. II minillikdə əmək alətləri daş, sümük, mis və tuncdan hazırlanırdı.

❖ Əhali əkinçilik, maldarlıq və sənətlə məşğul olurdu.

❖ İpək istehsalı ilə bağlı tut bağlarının becərilməsinə xüsusi fikir verilirdi.

❖ Artıq b.e.ə. VI əsrdə Çində ipəkqurdu bəslənilirdi. Çinlilər gözəl ipək parçalar toxuyurdular.

❖ B.e.ə. VI-V əsrlərdə burada dəmir istehsal edilirdi.

❖ B.e.ə. IV—III əsrlərdə Çində bir-biri ilə vuruşan altı padşahlıq var idi.
❖ Ona görə bu dövrü "Vuruşan padşahlıqlar dövrü" adlandırırlar.
❖ B.e.ə. 221-ci ildə Sin padşahı Çini birləşdirib özünü Sin Şixuandi (Sinin birinci imperatoru) adlandırdı. O, hun hücumlarına qarşı b.e.ə. 214-cü ildə Böyük Çin səddinin (tikintisi min ildən çox davam edən bu səddin uzunluğu 4 min kilometr, hündürlüyü on metrdir) inşasına başladı. Sin Şixuandi dövləti möhkəmləndirmək üçün inzibati islahat keçirdi və sərt idarə üsulu yaratdı.
❖ B.e.ə. 206-cı ildə Çində hakimiyyət **Xan sülaləsinin** əlinə keçdi.
❖ Bu sülalə bizim eranın III əsrinin əvvəllərinə qədər hakimiyyətdə oldu.
❖ Xan sülaləsi bizim eranın II əsrinədək işğalçı müharibələr apardı, hunların hücumlarını dəf edib, ətraf əraziləri tutdu.
❖ B.e.ə. II əsrin sonunda Böyük İpək yolunun salınmasına başlandı. Çindən gələn ticarət yolları dünya ticarət yollarına qovuşdu. Bu yolla Yaxın Şərq və Aralıq dənizi hövzəsinə Çin malları daşınırdı. Onun ən işlək xətlərindən biri Azərbaycan ərazisindən keçirdi.

- ❖ Böyük İpək yolu istiqamətində Çin orduları qarətçi hərbi yürüşlər də edirdilər.
- ❖ Müharibələr zamanı ələ keçirilən hərbi əsirlər qula çevrilirdi.
- ❖ Vergi və torpaq icarə haqlarının çoxluğu kəndlilərin vəziyyətini ağırlaşdırırdı. Ağır vəziyyətdə yaşayan kəndlilər və qullar quldarları "başqasının çörəyini yeyən vicdansız siçovullar" adlandırırdılar.
- ❖ Eramızın I əsrinin əvvəllərində "qırmızıqaşlılar", 184-cü ildə isə Çjan qardaşlarının başçılığı ilə "sarısarıqlılar" üsyanı baş verdi.
- ❖ 20 il davam edən «sarısarıqlılar» üsyanı yatırıldı.
- ❖ Bu üsyan Çin dövlətini zəiflətdi və ölkə bir neçə yerə parçalandı.
- ❖ III əsrin əvvəllərində Xan sülaləsinin hakimiyyətinə son qoyuldu.
- ❖ Çində quldarlıq quruluşu feodalizmlə əvəz olundu.

❖ Qədim Çində mədəniyyət kifayət qədər inkişaf etmişdi.

❖ Çin yazısı heroqlif adlanır, bambuk lövhələr üzərində yazılırdı. Mühüm sənədlər və imperatorun əmrləri isə ipək parça üzərində yazılırdı.

❖ Qədim Çində parça, ağac qabığı və bambukdan kağız hazırlandı.

❖ Çay ilk dəfə Çində becərilmişdir.

❖ Qədim çinlilər dəqiq təqvim düzəltmiş, ilk dəfə kompasdan istifadə etmişlər.

❖ "Dağlar və dənizlər" kitabında Çin və qonşuları haqqında coğrafi məlumatlar verilmişdir.

❖ B.e.ə. II əsrin sonu - I əsrin əvvəlində bütün ölkəni gəzən Sıma Tsyan topladığı tarixi məlumatlar əsasında "Tarixi qeydlər" kitabını yazdı.

❖ Kun-Sui tərəfindən Konfutsi təlimi yaradılmışdı.

❖ "Bilici" adı almaq üçün Konfutsi təlimindən imtahan vermək lazım idi.

# QƏDİM HİNDİSTAN

❖ Hindistandan Hind və Qanq çayları axır. Himalay dağları ölkəni şimal küləklərindən qoruduğu üçün burada qışda da isti olur.

❖ Hindistanda b.e.ə. III minillikdə qədim şəhərlər olmuşdur.

❖Qədim Hindistanda dravid və protodravid tayfaları yaşayırdılar.

❖ B.e.ə. II minillikdə Hindistana gələn köçəri ari tayfaları ilə yeili əhalinin qarışması nəticəsində hind xalqı təşəkkül tapdı.

❖ B.e.ə. I minillikdə Hindistanda ilk dövlət yarandı.

❖ Tayfa başçıları - racələr padşah oldular.

❖ Qulları "yad", "düşmən" adlandırırdılar.

❖ B.e.ə. VI əsrdə buradakı xırda dövlətlər Əhəmənilərin 20-ci satraplığına daxil idi.

❖ B.e.ə. 327-ci ildə Makedoniyalı İsgəndər Hindistanın şimal-qərbinə hücum etdi. Yerli əhalinin güclü müqavimətinə rast gələn Makedoniyalı İsgəndər yorulmuş əsgərlərinin tələbi ilə geri dönməyə məcbur oldu.

- ❖ B.e.ə. 317-ci ildə yerli Mauriya sülaləsindən olan Çandraqupta İsgəndərin xələflərindən biri olan Selevkinin qızı ilə evlənərək Hind padşahı kimi tanındı.
- ❖ B.e.ə. III əsrin ikinci yarısında Mauriya sülaləsinin nümayəndəsi Aşoka bütün Hindistanı vahid dövlətdə birləşdirdi.
- ❖ B.e.ə. 180-ci ildə isə bu sülalənin hakimiyyətinə son qoyuldu.
- ❖ Hindistanda baş tanrı Brahma hesab edilirdi.
- ❖ Qədim hindlilərin inamına görə, Brahma insanları kastalara (qəti müəyyənləşmiş hüquq və vəzifələri olan insan qrupları) bölmüşdü:

1) brahmanlar (kahinlər);
2) döyüşçülər;
3) Kəndlilər;
4) şudralar (nökərlər).

- ❖ Kastaların heç birinə daxil olmayanları "toxunulmazlar" adlandırırdılar. Onlar murdar sayılır və ən natəmiz işləri görürdülər.

- Hindlilərin etiqadları və dünyagörüşləri "Mahabharata" və "Ramayana" poemalarında, dini etiqad və qanunları isə "Veda" adlı sənəddə toplanmışdır.
- Hindlilər sıfır rəqəmi tətbiq etməklə sadə və asan hesab qaydası yaratdılar. Hind rəqəmləri Avropada ərəb rəqəmləri kimi tanınır.
- Aşoka dövrünə aid sütun üzərində dörd şir heykəli, b.e.ə. I əsrə aid daşdan yonulmuş darvaza və mağara məbədi Hindistanda memarlıq və heykəltəraşlığın inkişaf etdiyini sübut edir.
- Hindlilər öz ordularının düzülüş formasını xatırladan şahmat oyununu icad etdilər.
- B.e.ə. 566-486-cı illərdə yaşamış Qautama **buddizm** adlı yeni dinin əsasını qoydu.

# ANTİK TARİX
# QƏDİM YUNANISTAN

Balkan yarımadasının cənubunda yerləşən Yunanıstanı təbiət Şimal, Orta, Cənub olmaqla üç hissəyə bölür. Şimali Yunanıstanla Orta Yunanıstanı Fermopil dağ keçidi ayırır. Cənubi Yunanıstan Peloponnes adlanır.

❖ Avropada ən qədim dövlət b.e.ə. III-II minilliklərdə Yunanıstandan cənubda yerləşən Krit adasında yaranmışdır. Öz yazıları olan kritlilər:

➢ kənd təsərrüfatı və sənətkarlıqla məşğul olurdular;
➢ Misir, Finikiya və Babil ilə ticarət əlaqələri saxlayırdılar;
➢ Mikena və Afina şəhərlərinin mədəniyyətinə böyük təsir göstərmiş- dilər.

❖ B.e.ə. II minillikdə Kritə yaxın adada baş verən vulkan püskürməsi Krit mədəniyyətini məhv etdi.

❖ B.e.ə. 1450-ci ildə Cənubi Yunanıstanda (Mikenada) yaşayan axeylər Kriti tutdular. Axeylər Mikenada Akropol ("yuxarı şəhər" deməkdir) ucaltmışdılar.

❖ B.e.ə. II minilliyin sonlarında Yunanıstanın şimalından gələn dori yunan tayfaları axeylərin Mikena mədəniyyətini məhv etdilər.

- B.e.ə. XI—IX əsrlərdə Yunanıstanda ibtidai icma quruluşu quldarlıqla əvəz olundu.
- B.e.ə. VIII—VI əsrlərdə burada şəhər-dövlətlər meydana gəldi.
- Afina (Atina) şəhəri b.e.ə. II minillikdə Orta Yunanıstanda Attika vilayətində salınmışdır.
- B.e.ə. VIII—VII əsrlərdə Afinada quldarlıq quruluşu bərqərar oldu və quldarlıq dövləti yarandı.
- Afina dövlətini adlı-sanlı ağsaqqallardan ibarət şura və onun seçdiyi doqquz hökmdar idarə edirdi. Ağsaqqallar şurası artıq xalq yığıncağı çağırmadan bütün məsələləri həll edirdi.
- Adlı-sanlı yunanlar öz idarə üsullarını "aristokratiya" - "yaxşıların hakimiyyəti" adlandırırdılar. Attikanın qalan azad əhalisi (sənətkarlar, günəmuzdçular, dənizçilər) demos adlanırdı.
- Afinada:
  - Akropolun yanında aqora - bazar meydanı yerləşirdi;
  - sənətkarlar ikiqulplu gil qablar - amforalar düzəldirdilər;
  - əhali zeytun və üzüm becərir, metalişləmə və toxuculuqla məşğul olurdu;
  - b.e.ə. VII əsrdə gümüş pul kəsilirdi;
  - dəniz ticarəti inkişaf edirdi.

❖ Təsərrüfatın inkişafı qula olan tələbatı artırırdı. İri torpaq sahibləri onlardan borc alan kəndlinin sahəsinə "borc daşı" qoyurdu. Borcunu və faizini vaxtında qaytara bilmədikdə kəndli və ailəsi qula çevrilirdi.

❖ B.e.ə. VII əsrdə Afinada bütün məsələləri ağsaqqallar şurası həll edirdi. Bu dövrdə qəbul edilmiş qanunlar aristokratların həyatını və əmlakını qoruyurdu. Şura Drakon tərəfindən yazılmış sərt "Drakon qanunları"nı qəbul etdi. Bu qanunda ən kiçik səhvə görə ağır cəza nəzərdə tutulurdu. Buna görə də onu mürəkkəblə deyil, "qanla yazılmış qanunlar" adlandırırdılar.

❖ B.e.ə. VII əsrdən idarəetmədə iştirak etmək istəyən demosla aristokratlar arasında başlanan mübarizə e.ə. VI əsrdə kəskinləşdi.

❖ Demos kəndlilərə torpaq verilməsini, borcların ləğv olunmasını tə- ləb edirdi. Xalq üsyanlarından qorxan aristokratlar güzəştə getməyə məcbur oldular.

❖ Demosla aristokratları barışdıran **Solon** b.e.ə. 594-cü ildə xalq yığıncağına arxalanaraq islahat keçirdi.

❖ İslahata görə:

1) kəndlilərin borcları ləğv edildi;
2) borca görə qul edilən afinalılar azad olundu;
3) gələcəkdə borca görə qula çevrilmək qadağan edildi.

❖ Afinanın yerli sakini olan bütün kişilər vətəndaş hüququ aldı.

❖ Vətəndaş (qanunla müəyyən olunmuş hüquqlardan istifadə edən və dövlət qarşısında vəzifə daşıyan şəxsə vətəndaş deyilirdi) 2 illik hərbi xidmət keçməli idi.

❖ Kəndlilərdən yüngül və ağır silahlı döyüşçülər təşkil edilirdi. Minik atı ala bilənlər süvari hissələrə daxil olurdu.

❖ Ordunun əsasını piyadalar təşkil edirdi; əhali əmlakının miqdarına görə dörd dərəcəyə bölünürdü. Xalq yığıncağında bütün vətəndaşlar iştirak edə bilərdilər.

❖ B.e.ə. VI əsrin sonlarında xalq yığıncağı varlılardan ordu və donanmaya başçılıq edən strateqlər seçməyə başladı.

❖ B.e.ə. II minilliyin sonunda Peloponnesin cənub-şərqindəki Lakonika vilayətini tutan dorilər burada **Sparta şəhərini** saldılar. Onlar özlərini spartalılar, Spartada itaət altına alınmış əhalinin bir hissəsini isə qula çevirərək ilotlar adlandırırdılar.

❖ Spartalılar b.e.ə. VII əsrdə cənub-qərbdəki Messeniya vilayətini də tutdular.

❖ B.e.ə. VIII—VI əsrlərdə Spartada quldar dövləti yarandı.
❖ Qanunları xalq yığıncağı qəbul edirdi. Xalq yığıncağının seçdiyi ağsaqqallar şurası mühüm məsələləri həll edir, müqəssirləri cəzalandırırdı. Qanun spartalılara hərbi işdən başqa digər işlərlə məşğul olmağı qadağan edirdi. Qoşuna iki hökmdar başçılıq edirdi. Sparta ordusu falanqa adlanırdı.
❖ Ticarət və qənimət əldə etmək üçün səfərlərə çıxan yunanlar Aralıq və Qara dəniz sahillərində yeni daimi məskənlər - koloniyalar saldılar.
❖ B.e.ə. VIII—VI əsrlərdə Qafqazdan İspaniyayadək dəniz sahillərindəki koloniyalarda yaşayanlar özlərini ellinlər, vətənlərini isə Ellada adlandırırdılar.
❖ Yunanların yayıldığı ərazidəki mədəniyyət ellinizm adlanırdı.
❖ Torpağı əlindən alınmış və eləcə də Yunanıstandan qaçmağa məcbur olmuş adamlar, öz mallarını satmaq istəyən sənətkar və tacirlər koloniyalarda məskunlaşırdılar. Hər koloniya ayrıca şəhər-dövlət idi. Onların hökmdarı, xəzinəsi, öz pulu və qoşunu var idi.
❖ Daha çox koloniya salmış şəhər Milet idi.
❖ Qara dəniz sahillərində Pantikapey, Oliviya, Xersones koloniyaları salınmışdı.

# Yunan – İran müharibələri
# (e.ə. 500-449)

- ❖B.e.ə. VI əsrin sonu - V əsrin əvvəllərində Yunanıstanın və Əhəməni dövlətinin qüdrəti artmışdı.
- ❖ İran Kiçik Asiyanı tutduqdan sonra yunan koloniyalarını da ələ keçirmək istəyirdi.
- ❖ B.e.ə. 500-cü ildə İran şahı I Dara Aralıq dənizi sahillərində və Egey dənizi adalarında yunanları məğlub edərək Balkan yarımadasına hücum etdi.
- ❖ I Daranın ordusu ağır gəmilərlə təchiz olunmuş donanmadan, piyada və süvarilərdən ibarət idi.
- ❖ İran ordusunun ən təhlükəli hissəsi oxçular idi.
- ❖ B.e.ə. 490-cı ildə Miltiadın başçılıq etdiyi yunanlar Orta Yunanıstanda yerləşən Marafon düzündə İran ordusunu məğlubiyyətə uğratdılar.
- ❖ I Daranın oğlu Kserks b.e.ə. 480-ci ildə misirlilərdən, babillilərdən və Kiçik Asiya yunanlarından ibarət ordusu ilə Fermopil keçidinə çatdı və keçidi qoruyan Sparta hökmdarı Leonidin yanına elçi göndərib təslim olmağı tələb etdi.
- ❖ Spartalıları məğlub edən Kserks, dağ cığırlarını göstərən bir nəfər xainin köməyi ilə Orta Yunanıstanı tutdu.

❖ Lakin b.e.ə. 480-ci il Salamin dəniz vuruşmasında daha sürətli gəmilərə malik və dənizə daha yaxşı bələd olan yunanlar qalib gəldilər. İran donanması 300 gəmi itirdi. Triyera adianan gəmilərdən ibarət yunan donanmasına Femistokl başçılıq edirdi.

❖ B.e.ə. 479-cu il Plateya döyüşündə də yunanlar qalib gəldilər. Lakin dəniz döyüşləri 30 ilədək davam etdi.

❖ Yunan şəhər-dövlətləri öz ordu və donanmalarını Afina strateqinin rəhbərliyi altında birləşdirərək Afina dəniz ittifaqını yaratdılar.

❖ Yunan-İran müharibəsi (b.e.ə. 500-449) öz azadlığını müdafiə edən Yunanıstanın qələbəsi ilə başa çatdı.

❖ B.e.ə. 449-cu ildə bağlanan sülh müqaviləsinin şərtlərinə görə:

➢ İran Miletin, Egey dənizi adalarında və Kiçik Asiyada olan yunan şəhərlərinin müstəqilliyini tanıdı.

➢ İran hərbi donanmasının Egey dənizində üzməsi qadağan edildi.

❖ Yunanlar müharibədə çoxlu qənimət ələ keçirdilər. Bu qənimətin çox hissəsini qula çevrilən hərbi əsirlər təşkil edirdi.

❖ Dəniz ticarəti, dəniz quldurluğu, hərbi əsirlər qulların sayının çoxalmasına gətirib çıxartdı.

❖Ən böyük qul bazarı Xios adasında idi.

❖ Qul əməyindən ən çox filiz mədənləri və daş karxanalarında istifadə edilirdi. Sənətkarlıqla müqayisədə kənd təsərrüfatında qul əməyindən nisbətən az, yalnız çətin işlərdə istifadə olunurdu.

❖ Qulu "insanayaqlı" adlandırırdılar.

❖ B.e.ə. V əsrin ortalarında Afina Yunanıstanın ən güclü dövləti idi. Müasirləri afinalıları "dəniz sahibləri" adlandırmağa başladılar.

❖ Afinanın 6 kilometrliyində Pirey limanı tikildi.

❖ Afinada hakimiyyətin iki əsas forması uğrunda mübarizə gedirdi. Yuxarı təbəqə oliqarxiya (azlığın hakimiyyəti), aşağı təbəqə demokratiya (xalq hakimiyyəti) tərəfdarı idi.

❖ Strateq **Periklin** dövründə (b.e.ə. 443-428) Afinada quldarlıq demokratiyası ən yüksək inkişaf mərhələsinə çatdı.

❖ Bu zaman yoxsul vətəndaş da bütün vəzifələri tuta bilərdi. Onlara icra etdikləri vəzifəyə görə əmək haqqı verilirdi.

❖ Dövlətin ali orqanı xalq yığıncağı idi. Yığıncaq ayda 2-4 dəfə çağırılırdı. Burada qanunların qəbul edilməsi, müharibə və sülh məsələləri, şəhərin ərzaqla təmin olunması, vəzifəli şəxslərin hesabatı və s. müvafiq qərarlar qəbul edilirdi. Xalq yığıncağında 20 yaşdan yuxarı bütün Afina vətəndaşları iştirak edirdilər.

❖ Ali hökumət orqanı **500-lər şurası** idi.

❖ Yunanıstanın iki ən qüdrətli dövləti olan Afina ilə Sparta arasında daha çox qənimət ələ keçirmək, dəniz ticarətində üstünlük qazanmaq və qonşu dövlətləri özünə tabe etmək uğrunda mübarizə gedirdi.

❖ Bu onlar arasında Peloponnes müharibəsinə (e.ə 431-404) gətirib çıxartdı. Yunan şəhərlərinin bir qismi Afinanı, digər qismi isə Spartanı müdafiə edirdi. Müharibə Spartanın qələbəsi ilə başa çatdı və Afina dəniz ittifaqı ləğv edildi.

❖ Bu müharibələr kəndlilərin, sənətkarların var-yoxdan çıxmasına və b.e.ə. IV əsrin birinci yarısında yunan şəhər-dövlətlərinin tənəzzülünə səbəb oldu.

❖ Balkan yarımadasının şimal-şərqində yerləşən Makedoniya II Filippin hakimiyyəti dövründə (b.e.ə. 359-336) qüdrətli dövlətə çevrildi.

❖ II Filippin yaratdığı güclü nizami ordu falanqa şəklində düzülürdü. Piyada döyüşçülər kəndlilərdən, süvarilər isə varlılardan təşkil olunurdu. II Filipp hərbi üstünlükdən və yunan quldarlarının xəyanətindən istifadə edirdi. Onun pulla satın aldığı adamlar şəhər darvazalarını onun üzünə açırdılar. Buna görə də II Filipp deyirdi: *«Qızılla yüklənmiş eşşək hər bir şəhəri tuta bilər».*

❖ Afinanın II Filippə qarşı mübarizəsinə rəhbərlik edən məşhur natiq Demosfenin səylərinə baxmayaraq Afina da süqut etdi.

❖ II Filippin oğlu İsgəndər Xeroneya döyüşündə ilk dəfə sərkərdəlik məharətini nümayiş etdirdi. İrana yürüş ərəfəsində II Filipp sui-qəsd nəticəsində öldürüldükdən sonra **İsgəndər** hökmdar elan edildi (b.e.ə. 336-323). Onun müəllimi böyük alim Aristotel idi.

❖ O, b.e.ə. 334-cü ildə Kisik Asiyaya daxil oldu. Finikiya və Misiri işğal etdi. Finikiyanın Tir şəhəri bu zaman ciddi müqavimət göstərdi.

❖ Misir kahinləri İsgəndəri firon və tanrı adlandırırdılar.

❖ O, Asiyada Qranik (b.e.ə. 334), İss (b.e.ə. 333) və Qavqamela (b.e.ə. 331) döyüşlərində **III Daranı** məğlub etdi.

✓ Qavqamela döyüşündə albanların iştirak etməsi tarixdə albanlar haqqında ilk məlumatdır.

❖ B.e.ə. 330-cu ildə III Dara öldürüldü və bununla Əhəməni imperiyası süqut etdi.

❖ Makedoniyalı İsgəndər tutduğu ərazilərdə hakimiyyətini möhkəmləndirmək üçün şəhərlər tikdirir, onlarda yunan və makedoniyalılardan ibarət qoşun yerləşdirirdi.

❖ Hindistana da yürüş təşkil edən İsgəndər ciddi müqavimətlə üzləşdiyinə və yorulmuş ordusu yürüşü davam etdirmək istəmədiyinə görə geri qayıtdı.

❖ Onun yürüşləri nəticəsində Balkan yarımadası və Misirdən başlayaraq Hind çayına qədər böyük bir ərazidə **Makedoniya imperiyası** yarandı.

❖ O, Babil şəhərini öz imperiyası üçün paytaxt seçdi.

❖ İsgəndər b.e.ə. 323-cü ildə vəfat etdi və Misirdəki İsgəndəriyyə şəhərində dəfn edildi.

❖ Onun vəfatından sonra imperiya 3 yerə:

1. Makedoniya,
2. Misir və
3. Suriya padşahlıqlarına parçalandı.

❖ İsgəndərin sərkərdələri yeni yaranan dövlətlərin padşahları oldular.

❖ Məbədlərin torpaqlarını, qullarını, əmlakını əllərindən almadıqlarına görə kahinlər padşahları tanrı adlandırır, onları müdafiə edirdilər.

❖ Hərbçilərə və məmurlara etdikləri xidmətə görə torpaq sahəsi verilirdi.

## Yunan mədəniyyəti

❖ Qədim yunan və Roma mədəniyyətləri birlikdə **Antik (qədim) mədəniyyət** adlanır.

❖ Müəllifi b.e.ə. VIII əsrdə yaşamış **kor şair Homer** hesab edilən "İliada" və "Odisseya" dastanları yunanların (axeylər) b.e.ə. 1200-cü ildə Kiçik Asiyadakı Troya şəhərinə yürüşündən bəhs edir.

❖ Bu dastanlar b.e.ə. VI əsrdə yazıya alınmışdır.

❖ Yunanların inamına görə:

- Olimp dağında yaşayan Zevs – səma,
- Poseydon – dəniz,
- Aid - yeraltı səltənət,
- Helios - günəş,
- Apollon - işıq və incəsənət,
- Dionis - şərabçılıq,
- Demetra - əkinçilik,
- Hefest - dəmirçilik,
- Hermes - ticarət tanrısı idi.

❖ Baş tanrı- Zevs idi.

❖ Prometey haqqında əfsanə odun sirrinin insana çatdırılması ilə bağlıdır.

❖ Metal emalının başlanması ilə əlaqədar dəmirçiliyi himayə edən Hefest,
❖ ticarətin inkişafı ilə əlaqədar Hermes haqqında əfsanələr yarandı.
❖ B.e.ə. V əsrin sonu - IV əsrdə bütün yunan şəhərlərində teatr (tamaşa yeri) var idi.
❖ Tragediyanın ("keçilər mahnısı") ilk müəllifləri **Esxil** ("Zəncirlənmiş Prometey") və **Sofokl** ("Antiqona") idi.
❖ Afina teatrında onlara heykəl qoyulmuşdu.
❖ B.e.ə. V-IV əsrlərdə Yunanıstanda memarlıq ən yüksək zirvəyə çat- mışdı.
❖ Afinanın Akropol (yuxarı şəhər) hissəsində yunan memarlığının möcüzəsi hesab edilən binalardan biri - Periklin dövründə Afinanın şərəfinə tikilən "Parfenon" məbədi ucalırdı.
❖ Yunan memarlığında dorik, ionik adlı sütunlardan və portiklərdən (talvarlardan) istifadə olunurdu.
❖ **Fidinin** Parfenonda qızıl və fil sümüyünden düzəltdiyi "Afina",
❖ **Mironun** isə "Diskatan" heykəlləri məşhur idi.

❖ B.e.ə. VII—VI əsrlərdə Milet və İoniya vilayətinin şəhərləri yunan elminin mərkəzləri kimi tanınırdı. O dövrün böyük **filosofu Demokrit** ilk dəfə atom haqqında fikir söyləmişdi.

❖ Ən məşhur **həkim Hippokrat** idi.

❖ "Tarix" əsərinin müəllifi, b.e.ə. V əsrdə yaşamış **Herodot "Tarixin atası"** adını almışdı.

❖ B.e.ə. IV əsrdə yaşamış **Aristotel** elmlərə ad vermiş, geosentrik nəzəriyyə irəli sürmüşdü.

❖ Bu nəzəriyyəyə görə, Yer kürə şəklində olub, kainatın mərkəzində yerləşir, Günəş və ulduzlar isə onun ətrafında fırlanır.

❖ Yunanıstanda ən yaxşı **məktəblər** Afinada idi.

❖ Şagirdlər yeddi yaşından məktəbə gedir, stil adlı alətlə mum üzərində yazırdılar. Məktəblərdə ciddi nizam-intizam var idi. Tənbəl və intizamsız şagirdlərə çox ciddi cəza verilirdi.

❖ Dörd ildən bir keçirilən Olimpiya oyunlarında bütün azad ellinlər iştirak edə bilərdi. Qadınlara bu oyunlara getmək qadağan edilmişdi. Oyunlar Yunanıstanın cənubunda yunanlar üçün müqəddəs yer sayılan Olimpiya vadisində keçirilirdi.

❖ Yarış beş gün davam edir, bu zaman müharibələr dayandırılırdı. Qalib zeytun ağacı budaqlarından hörülmüş çələnglə mükafatlandırılır, onlara heykəl qoyulurdu.

❖ Yunanlar il hesabını da ilk Olimpiya oyunlarının keçirlldiyi b.e.ə. 776-cı ildən hesablayırdılar.

❖ İsgəndər tərəfindən işğal edilən ərazilərdə yunan dili və mədəniyyəti yayılmışdı. İsgəndəriyyə şəhəri Misirin üçüncü paytaxtı oldu. Burada dünyanın yeddi möcüzəsindən biri olan mayak (hündürlüyü 140 m) ucaldılmışdı.

❖ Elm və incəsənət hamisi olan ilahə **Muza** üçün yaradılmış Muzeydə 700 min əlyazma saxlanırdı. Burada rəsədxana və kitabxana var idi.

❖ Yazı üçün istifadə edilən aşılanmış dərinin - perqamentin vətəni Kiçik Asiyada Perqam şəhəri idi.

❖ İsgəndəriyyədə **Evklid və Arximed** eimi fəaliyyət göstərirdilər.

❖ B.e.ə. III-II əsrlərdə burada memarlıq yüksək inkişaf etmişdi.

❖ Tikintidə gözəl korinf sütunlarından istifadə olunurdu. Perqamda uzunluğu 140 m olan relyef abidəsində hündürlüyü 2 m olan fiqurlar var idi. Bu abidədə Olimpiya tanrılarının nəhənglərlə döyüş səhnəsi verilmişdi.

❖ Qədim **yunan tarixçisi Plutarx** İsgəndərin həyatını təsvir etmişdir.

# QƏDİM ROMA

❖ Qədim Roma yunanların **"İtaliya"** ("Buzovlar ölkəsi") adlandırdığı Apennin yarımadasında salınmışdı. İtaliyanın cənub qurtaracağında Siciliya adası yerləşirdi.

❖ Apennin yarımadasında zəngin faydalı qazıntılar var idi. Alp dağları İtaliyanı şimal küləklərindən qoruyurdu.

❖ B.e.e. I minilliyin əvvəllərində Apennində yaşayan müxtəlif tayfa və xalqlar içərisində ən inkişaf etmiş xalq etrusklar idi. Etruskların azad şəhərləri və on min (10 000) yazı işarəsi vardı.

❖ Apennin yarımadasının mərkəzindəki Latsio vilayətində yaşayan latınların dili İtaliyanın ümumi dilinə çevrilmişdi.

❖ B.e.ə. 753-cü ildə yarımadanın mərkəzindən axan Tibr çayının 25 km-də **Roma şəhəri** salındı.

❖Romanın ən qədim sakinləri özlərini **patrislər** (pater - ata sözündən götürülüb) adlandırırdılar. Əkilən torpaq sahələri və otlaqlar ancaq onlara məxsus idi.

❖ Azad əhalinin yoxsul təbəqəsi **plebeylər** adlanırdı. Plebeylər orduda xidmət edirdilər. Onların torpaq payı yox idi, Plebeylər patrisilərin torpağını icarəyə götürür, məhsulun yarısını onlara verirdilər.

❖ Patrisilərin "ağsaqqallar şurası" **Senat** adlanırdı. Senatın üzvləri olan senatorlar öz aralarından bir nəfəri ömürlük padşah seçirdilər.

❖ Romanın Kapitoli təpəsində sığınacaq məqsədilə qala tikilmişdi. Romanın bazar meydanı forum adlanırdı.

❖ Qul əməyindən ən ağır işlərdə, sənətkarlıqda, kənd təsərrüfatında, ev işlərində istifadə edilirdi.

❖ B.ə.e. 509-cu ildə Romada padşahlıq ləğv edildi və **respublika** (ümumxalq işi deməkdir) quruldu.

❖ Respublika dövründə xalq yığıncağı patrisilər arasından Romanı bir il idarə edən, müharibə zamanı isə ordu komandanı olan iki konsul seçirdi.

❖ Senat böyük səlahiyyətlərə malik idi. O, maliyyə işlərinə, müharibə və sülh məsələlərinə baxır, qərarlar hazırlayır və səsə qoymaq üçün xalq yığıncağına təqdim edirdi.

❖ Respublika quruluşundan sonra yenə hüquqsuz qalan plebeylər patrisiləri Romanı tərk etməklə hədələdilər. Plebeylərsiz ordunun zəifləyeceyindən qorxan patrisilər plebeylərə güzəştə getdilər.

❖ B.e.ə. V əsrin əvvəlində plebeylər öz müdafiəçilərini - **xalq tribunlarını** seçmək hüququ aldı. Tribun senatın və konsulun plebeylərə aid göstərişlərini ləğv etmək hüququna malik idi. Bunun üçün onun "**veto**" (qadağan edirəm) deməsi kifayət idi. Xalq tribununun öldürülməsi ən ağır cinayət sayılırdı.

❖ Plebeylər tədricən icma torpaqlarından pay almaq və konsul vəzifəsinə seçilmək hüququ da aldılar.
❖ Onları borca görə qula çevirmək qadağan edildi.
❖ Plebeylərlə patrisilər arasında 244 illik mübarizə (b.e.ə. 509-265) plebeylərin qələbəsi ilə başa çatdı.
❖ Artıq b.e.ə. III əsrin ortalarında onlar tamhüquqlu vətəndaş oldular.
❖ Hər bir Roma vətəndaşı istənilən vəzifəni tuta bilərdi. Lakin Yunanıstandan fərqli olaraq Romada vəzifə üçün əmək haqqı verilmədiyinə görə yoxsullar vəzifə tutmaqda maraqlı deyildilər.
❖ Roma hər biri 4500 nəfər ağır silahlı piyadalardan ibarət **legionlara** arxalanaraq 200 illik vuruşmalardan sonra b.e.ə. III əsrin birinci yarısında İtaliyada yaşayan xalqların hamısını özünə tabe etdi.
❖ B.e.ə. III əsrin əvvəllərində Cənubi İtaliyadakı yunan şəhərləri tutuldu.
❖ Yunan yazısı əsasında latın yazısı yarandı.
❖ Latın dili dövlət dili oldu.

❖ Romalılar "parçala, hökmranlıq et" siyasətini həyata keçirirdilər. Bütün İtaliyanın işğal edilməsi prosesində iki ifadə meydana çıxdı:

1. **«Qazlar Romanı xilas etdi»** (b.e.ə. 390-cı ildə qalların Romaya hücumu zamanı təpədəki qazlar qaqqıldaşaraq Roma döyüşçülərini oyatdığından onlar təhlükədən xilas olmuşdular);
2. **«Pirr qələbəsi»** (məğlubiyyətə bərabər olan qələbə - romalılarla vuruşan Cənubi İtaliyadakı yunan şəhərlərinə köməyə gələn Epir padşahı Pirrin döyüş fillərindən istifadə edərək böyük itki və çətinliklə də olsa, qazandığı qələbə nəzərdə tutulur).

❖ Roma ilə Aralıq dənizinin sahillərində və adalarında geniş torpaqlar tutmuş və cənub sahilində möhkəmlənmiş Karfagen arasında Siciliya adasını ələ keçirmək uğrunda başlanan müharibə **Pun müharibəsi** adlanır.

❖ Çünki romalılar karfagenliləri punlar adlandırırdılar.

❖ I Pun müharibəsi (b.e.ə. 264-241) Romanın qələbəsi və Siciliyanın ələ keçirilməsi ilə qurtardı.

❖ Bundan sonra Roma Sardiniya və Korsika adalarını tutarkən Karfagen b.e.ə. 219-cu ildə İspaniyada Romanın müttəfiqi olan Saqunt şəhərini istila etdi.

❖ Bu, Romaya II Pun müharibəsini (b.e.ə. 218-201) , başlamaq üçün bəhanə verdi.

❖ Bu zaman Karfagen sərkərdəsi **Hannibal** gözlənilmədən İspaniyadan İtaliyaya hərəkət etdi. Şimali İtaliyada, Po çayı sahilində qall tayfaları da ona qoşuldu.

❖ Hannibalın onları Roma ağalığından azad edəcəyi vədinə inanan bəzi tayfalar və şəhərlər onun tərəfinə keçdilər.

❖ B.e.ə. 216-cı ildə **Kanna döyüşündə** süvarilərin üstünlüyündən istifadə edən Karfagen qalib gəldi. On minlərlə romalı qırıldı və əsir alındı. Romalılar hərbi xidmətə yararlı bütün kişiləri orduya çağırdılar və döyüş taktikasını dəyişdilər.

❖ B.e.ə. 204-cü ildə Roma **Ssipionun** başçılığı ilə Afrikaya qoşun çıxartdı. Hannibal Karfageni müdafiə etmək üçün İtaliyadan çıxıb getməli oldu.B.e.ə. 202-ci ildə Karfagendən cənubda yerləşən Zama şəhəri yaxınlığındakı döyüşdə Roma qalib gəldi.

❖ B.e.ə. 201-ci ildə bağlanmış sülhə görə Karfagen:

1. hərbi donanmasını təslim etməli;
2. təzminat verməli;
3. Afrikadan kənardakı torpaqlardan əl çəkməli idi.

❖ Roma Karfagenin ticarət üstünlüyünə son qoymaq üçün b.e.ə. 149-146-cı illərdə III Pun müharibəsinə başladı. Nəticədə Karfagen tutuldu və Romanın əyaləti elan edildi.

❖ B.e.ə. 190-cı ildə Suriyanı məğlubiyyətə uğradan Roma onun Kiçik Asiyadakı torpaqlarını ələ keçirdi. Roma, onun istiqlaliyyət vədinə inanan Yunanıstanın köməyi ilə əvvəl Makedoniyanı məğlubiyyətə uğratdı, sonra isə b.e.ə. 146-cı ildə Yunanıstanı tutdu.

❖ Bununla da Roma Aralıq dənizi hövzəsində ən güclü dövlətə çevrildi.

❖ Senat qalib sərkərdəni **triumfla** təltif edirdi. Triumf sərkərdənin öz qoşunu, ələ keçirdiyi qənimət və əsirlərlə birlikdə 4 ağ at qoşulmuş arabada təntənə ilə Roma şəhərinə daxil olmasına deyilirdi.

❖ İşğal edilmiş ərazilər Roma əyaləti elan edilir, onları Roma canişinləri idarə edirdilər.

❖ İşğalçı müharibələr, eləcə də qulların sayının artması kəndlilərin var- yoxdan çıxmasına səbəb oldu.

❖ B.e.ə. 133-cü ildə xalq tribunu seçilən **Tiberi Qrakx** kəndlilərin var-yoxdan çıxmasının Roma üçün çox təhlükəli olduğunu başa düşüb, yeni torpaq qanunu təklif etdi.

❖ Qanuna görə: Hər bir varlı romalının maksimum torpaq sahəsi 250 hektar olmalı, artıq torpaq alınmalı və yoxsullara paylanmalı idi. Paylanan torpaqların satılması qadağan edilir və həmişəlik kəndlilərin ixtiyarında qalırdı.

❖ Senat bu qanunu rədd etsə də, xalq yığıncağı onu qəbul etdi. Bunu görən senatorlar Tiberinin üzərinə guya padşah olmaq istəməsi haqqında böhtan atıb, onu öldürdülər.

❖ B.e.ə. 123-cü ildə Tiberinin qardaşı **Qay Qrakx** xalq tribunu seçilib onun işini davam etdirdi. On minlərlə yoxsul torpaq aldı. Lakin küçə vuruşmalarında Qay da öldürüldü.

❖ Bundan sonra senat torpaq paylanmasını dayandırdı və kəndlilərin dövlətdən aldığı torpaqların satılmasına icazə verən qanun qəbul etdi. Varlılar yenidən kəndlilərin torpaqlarını satın almağa başladılar.

❖ Romalılar zəbt etdikləri ərazilərdən çoxlu qənimət və qul ələ keçirib ölkəyə gətirirdilər. Ən böyük qul bazarı Egey dənizindəki Delos adası idi.

❖ Qulları kənd təsərrüfatı və tikinti işlərində, varlıların malikanələrində və İspaniyanın işğal edilmiş gümüş mədənlərində işlədirdilər.

❖ Romada kotanı "dilsiz", öküzləri "böyürən", qulları «danışan alət» adlandırırdılar.

❖ B.e.ə. III əsrdən Romada keçirilən **qladiator** (qılınc) döyüşləri etruskların ölən döyüşçülərinin şərəfinə qurban vermək adəti ilə bağlı idi.

❖ Çevik və güclü qullara xüsusi məktəblərdə silah işlətməyi öyrədir və bir- biri ilə vuruşmağa məcbur edirdilər. Belə qulları qladiator adlandırırdılar.

❖ Qladiator döyüşləri üçün **amfiteatr** tikilirdi. Onun mərkəzində qum tökülmüş meydança - arena olurdu.

❖ Qladiator döyüşündə məğlub olan qulun taleyi tamaşaçılardan asılı idi.

❖ B.e.ə. 74-cü ildə Frakiya tayfasından olan **Spartakın** başçılığı ilə Kapuya qladiator məktəbindən qaçan qullar Vezuvi dağında gizlənərək üsyana başladılar.

❖ Spartak ona qarşı göndərilən iki konsulun ordusunun birləşməsinə imkan vermədi və vuruşaraq İtaliyanı tərk etmək məqsədilə şimaldakı Po çayı vadisinə çıxdı. Lakin o, gözlənilmədən geri qayıdaraq Siciliya adasında üsyan qaldırmaq üçün İtaliyanın cənub-qərbinə getdi.

❖ Üsyançıları adaya keçirməyə söz verən dəniz quldurları Spartakı aldatdılar. **Krass** başda olmaqla Roma qoşunu onu mühasirəyə aldı. Krassın köməyinə Pompey də gəldi. Spartak tələyə düşdü. O, *"acından ölməkdənsə, qılınc zərbəsindən ölmək daha yaxşıdır"* deyərək Krassın qoşunu üzərinə hərəkət etsə də, b.e.ə. 71 -ci ildə məğlub edildi və həlak oldu.

❖ Üsyançılar arasında fikir ayrılığı, qulların ümumi mənafe naminə birləşə bilməməsi və onların pis silahlanması üsyanın məğlubiyyətinə səbəb oldu.

❖ Uğurlu işğalçı müharibələr Romada sərkərdələrin hakimiyyətini möhkəmləndirdi. Əsgərlər yalnız onlara haqq və müharibə vaxtı ələ keçirilən qənimətin bir hissəsini verən qoşun başçılarına tabe idilər.

- ❖ Spartak üsyanından sonra Romada **Krass, Pompey və Sezar** arasında hakimiyyət uğrunda mübarizə gedirdi.
- ❖ Konsul seçilən Sezar müddət başa çatdıqdan sonra Qalliya əyalətinə canişin təyin edildi. O, Roma ordusunu muzdlu döyüşçülərdən təşkil etdi və bütün Qalliyanı ələ keçirmək üçün 8 il qallarla müharibə apardı.
- ❖ Hələ konsul seçilərkən yoxsullara taxıl və torpaq paylanması təklifi ilə çıxış edən, onlar üçün qladiator döyüşləri təşkil edərək yoxsulları öz tərəfinə çəkən Sezar indi də ələ keçirdiyi qənimət hesabına döyüşçülərinin maaşını ikiqat artırdı, onlara hərbi xidməti başa çatdırandan sonra torpaq vəd etdi.
- ❖ Qalliyamn işğalından sonra Sezar Romada ali hakimiyyəti ələ keçirmək istəyirdi. O özünə sadiq qoşunla Romanın icazəsi olmadan Roma-Qalliya sərhədini - Rubikon çayını keçdi.
- ❖ Bu, respublikaya qarşı qiyam idi. Çayı keçərkən Sezar ***"artıq püşk atılmışdır"*** ifadəsini işlətdi. Pompeyin müqavimətini dəf edən Sezar b.e.ə. 49-cu ildə Romaya daxil oldu və bütün İtaliyanı tutdu. O, Pompeyi Balkan yarımadasında da məğlub etdi.

❖ Sezar tərəfdarları ilə Pompey tərəfdarları arasında gedən müharibə vətəndaş müharibəsinin (bir ölkə daxilində müxtəlif qüvvələr arasında gedən müharibə) başlanğıcı oldu.

❖ Sezar bütün Roma respublikasında hakimiyyətini tam qurmaq üçün daha üç il Asiya, Afrika və İspaniyada müharibələr apardı.

❖ Senat Sezarı "**imperator**" (tam hakimiyyət sahibi) adlandırdı. İmperatora padşah kimi ehtiram göstərilirdi. Metal pullar üzərində onun şəkli həkk olunur, heykəlləri tanrıların heykəlləri ilə yanaşı qoyulurdu. Konsul və xalq tribunu vəzifələrinə yalnız Sezarın layiq bildiyi adamlar seçilirdi.

❖ Senatorların bir qismi b.e.ə. 44-cü ildə Romada aristokratik respublikanı qoruyub-saxlamaq üçün Sezarın yaxın dostu Brutun başçılığı ilə sui-qəsd təşkil etdilər və Sezar öldürüldü. Qəsdçilər Romada özlərinə tərəfdar tapmayıb, Makedoniyaya qaçdılar.

❖ Sezarın varisi **Oktavian** və yaxın silahdaşı **Antoni** respublika tərəfdarlarını Filipp şəhəri yaxınlığında məğlub etdilər.

❖ Bundan sonra Antoni Romanın Şərq, Oktavian isə Qərb əyalətlərini idarə etməyə başladı.

❖ Antoni Misir şahzadəsi Kleopatra ilə evləndi.

❖Antoni ilə Oktavian arasında kəskinləşən ziddiyyətlər müharibə ilə nəticələndi.

❖ B.e.ə. 31-ci ildə Aksi burnu yaxınlığında baş verən döyüşdə məğlub olan Antoni İsgəndəriyyəyə qaçaraq Kleopatra ilə birgə özünü öldürdü. B.e.ə. 30-cu ildə Misir Romanın əyalətinə çevrildi. Oktavianın Antoniyə qalib gəlməsi ilə Romada vətəndaş müharibəsi dövrü başa çatdı.

❖ Oktavianın hakimiyyəti dövründə (b.e.ə. 30-cu il - bizim eranın 14-cü ili) respublika idarə forması (senat, xalq yığıncağı, konsul, tribun) saxlansa da, hər şey onun göstərişi ilə olurdu. O, imperator titulu daşıyırdı. Senat ona "Avqust" (müqəddəs) adı verdi.

❖ Onun dövründən başlayaraq Romanı imperiya, hökmdarları isə imperator adlandırırdılar.

❖ Bizim eranın I-II əsrlərində Roma öz qüdrətinin zirvəsində idi. Lakin quldarlıq quruluşu təsərrüfatı tənəzzülə doğru aparır, imperiyanın qüdrətini sarsıdırdı.

❖ Qul əməyi ağır və səmərəsiz idi.

❖ Qiymətli əmək alətlərini sındırdıqları üçün qullara etibar etmirdilər. Quldarlıq texnikanın inkişafını ləngidirdi.

❖ Öz əməyinə marağı artırmaq üçün bəzi qullara kiçik torpaq sahələri, əmək alətləri verilir, daxma tikməyə və ailə qurmağa icazə verilirdi. Belə qulları "daxmalı qullar" adlandırırdılar.

❖ Daxmalı qul sahibinə müəyyən haqq və məhsulun bir hissəsini verir, digər hissəsi isə özünə qalırdı.

❖ Tədricən iri malikanə sahibləri torpaqlarını azad kəndlilərə icarəyə verirdilər. Belə icarədar kəndlilərə kolonlar (latınca "əkinci") deyilirdi. Kolon yalnız icarə haqqı verirdi.

❖ Onlar yoxsul olduqları üçün torpaq sahibindən borc alaraq asılı vəziyyətə düşürdülər.

❖ Bizim eranın II əsrində **imperator Adrian** qulun öldürülməsini qadağan etdi.

❖ I əsrdə İsa peyğəmbərin Fələstində dünyaya gəlməsi haqqında rəvayətlər yarandı. İsaya ə.s. pərəstiş edənlər onu "xristos" (Allah c.c. tərəfindən seçilmiş), onun haqqında rəvayətləri isə "İncil" (şad xəbərlər) adlandırdılar.

❖ Romalılara görə, İsa ə.s. Fələstində Roma hakimiyyətini sarsıtmaq istəyən "araqarışdıran" idi.

❖ Xristianlığı əvvəlcə yoxsullar və qullar qəbul etdilər. Xristianlıq bütün Roma ərazisinə yayıldı. Xristian icmalarını birləşdirən təşkilatı kilsə adlandırmağa başladılar.

❖ IV əsrin əvvəllərində Romada hakimiyyətə gələn **Konstantin**:

1. 313-cü ildə xristianlığı rəsmiləşdirdi və özü də bu dini qəbul etdi. Xristian dininin yüksəlişindəki xidmətlərinə görə onu müqəddəs elan etdilər,
2. 330-cu ildə keçmiş yunan koloniyası olan Vizanti (Bizans) şəhərinin yerində Konstantinopol şəhərini (indiki İstanbul) saldırdı və paytaxtı oraya köçürdü.

❖ IV əsrdə Romaya barbarların (yunanca "anlaşılmaz dildə danışan", "əcnəbi") hücumları güclənmişdi. Barbar tayfalarından biri qotlar idi.

❖ IV əsrin ikinci yarısında qot tayfaları hunların hücumuna tab gətirməyib, Roma ərazisinə çəkildilər.

❖ Qotlar imperiyanın əhalisiz qalmış vilayətlərində məskən salaraq İmperiyanın sərhədlərini qorumağı öhdələrinə götürdülər.

❖ Bunun əvəzində romalılar onları ərzaqla təmin etməli idilər.

❖ Aclığa düçar olan qotlar 378-ci ildə üsyan qaldırıb imperator **Valent** öldürdülər.

❖ Nəhayət, 395-ci ildə imperator **I Feodosi** ölümqabağı Roma imperiyasını iki oğlu arasında bölüşdürdü və nəticədə iki imperiya yarandı:

1. Şərqi Roma (Bizans) - paytaxtı Konstantinopol (buraya Balkan yarımadası, Misir və Kiçik Asiya daxil idi).
2. Qərbi Roma - paytaxtı Roma (buraya İtaliya, Avropa və Afrikanın qərb vilayətləri daxil idi.

❖ 410-cu ildə german tayfalarından biri olan qotlar **Alarix** başda olmaqla ikinci yürüş zamanı Romanı tutub onu üç gün talan etdilər.

❖ 451-ci ildə **Hun hökmdarı Attila** ilə Roma ordusu Orlean yaxınlığında (KATALAUN) üz-üzə gəldi.

❖ Bir il sonra Attila Ravenna şəhərinə yaxınlaşanda Roma papası ondan acizanə şəkildə sülh xahiş etdi.

- German tayfalarından biri olan vandallar isə İspaniyadan Afrikaya keçərək orada krallıq yaratdılar.
- 455-ci ildə vandallar Romanı tutaraq 14 gün talan etdilər.
- Bu hadisədən sonra "vandal" (vəhşi, mədəniyyət abidələrini, şəhərləri dağıdan qəddar adam) anlayışı yarandı.
- Nəhayət, 476-cı ildə alman (german) tayfaları sonuncu imperator **Avqustu** (Romul Avqustul) taxtdan salıb, Qərbi Roma imperiyasına son qoydular.
- Onun süqutu ilə Qərbi Avropada quldarlıq quruluşu dağıldı.
- Buna görə də 476-cı il **qədim dünya tarixinin sonu** hesab olunur.

# Roma mədəniyyəti

❖ Romanı "Əbədi qızıl şəhər" adlandırırdılar.
❖ Eramızın əvvəllərində burada bir milyondan artıq əhali yaşayırdı.
❖ İmperatorlar yoxsulların həyəcanlarına yol verməmək üçün onlara çörək və xırda pul paylayırdılar.
❖ İmperatorun əmri ilə isti və soyuq hovuzları olan hamamlar (termlər) tikilmiş, Romanın ətrafında dəniz döyüşü tamaşası üçün göl yaradılmışdı.
❖ Forumun yaxınlığındakı Palatin təpəsində saraylar ucaldılmışdı.
❖ Romanın ən əzəmətli abidələrindən biri 50 min nəfərlik Kolizey ("Böyük") amfiteatrı idi.
❖ Panteon məbədi "Bütün tanrıların məbədi" hesab olunurdu.
❖ Kapitoli təpəsində Yupiter tanrının məbədi ucaldılmışdı.
❖ II əsrdə Dunay çayı sahilində qələbəyə görə imperator **Trayanın** şərəfinə 40 metr hündürlüyündə sütun tikilmişdi.

❖ B.e.ə. I əsr və bizim eranın I əsri "Roma poeziyasının qızıl dövrü" idi.

❖ Bu dövrdə Vergili "Eneida", Lukretsi "Cisimlərin təbiəti haqqında' və Plini isə 'Təblət tarixi" əsərlərini yazmışdılar. Plini 79-cu ildə Vezuvi vulkanının püskürməsi zamanı həlak olmuşdu.

❖ Romalılar **beton** ixtira etmişdilər.

❖Memarlıqda zəfər tağları geniş yayılmışdı. Triumf vaxtı qaliblər bu tağların altından keçirdilər.

❖ Romada istifadə edilən latın qrafikasından indi də çoxlu xalqlar, o cümlədən Azərbaycan xalqı istifadə edir.

❖ Sezarın dövründə tətbiq edilən **təqvim**dən bəzi dəyişikliklərlə indi də istifadə olunur.

❖ Bir çox ayların latın adı da saxlanılmışdır. İyul ayı Yuli Sezarın, avqust ayı isə Oktavian Avqustun şərəfinə adlandırılmışdır.

❖ Antik mədəniyyət sonrakı dövrlərdə Avropa ölkələrinin mədəni inkişafı üçün əsas olmuşdur.